# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 279/4** **30 sentyabr 2016-cı il**

**«Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2016-cı ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlarının təhlili və tövsiyələrin hazırlanması» barədə**

Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.8-ci «Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2016-cı ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlarının təhlili və tövsiyələrin hazırlanması» bəndinə uyğun olaraq hazırlanmış təhlil materialını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış «Sərbəst auditorlar və auditor təşkilatlarının 2016-cı ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatların təhlili və tövsiyələr» barədə məruzə nəzərə alınsın (əlavə olunur).
2. Audit sistemində informasiya və təhlil işlərinin təkmilləşdirilməsi məqsədilə statistik göstəricilər sisteminə yenidən baxılması və ötən ilin təcrübəsini nəzərə almaqla sistemin 2 № li Əlavəsinin dəqiqləşdirilməsi istiqamətində müvafiq işlər həyata keçirilsin.
3. Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi istiqamətində səmərəlilik, uyğunluq, yüksək texnologiyalar və innovasiya auditlərinə dair metodiki vəsaitlərin hazırlanması məqsədəmüvafiq hesab edilsin.
4. Mövcud təhlilin elmi-metodiki nəticələrinin auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil edilməsi, son dövrlərdə qəbul edilmiş normativ-hüquqi aktlarda auditlə bağlı müddəaların öyrənilməsi və tətbiqi üzrə tədbirlərin həyata keçirilməsi və yeni müddəaların auditə təsirinin öyrənilməsi istiqamətində 2017-ci ilin iş planında Analitik informasiya və təhlil şöbəsi üçün müvafiq öhdəliyin yaradılması nəzərə alınsın.
5. Dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə etmək, cəmiyyətdə maliyyə şəffaflığının artırılmasında auditin rolunu yüksəltmək, məcburi auditdən keçməli olan təsərrüfat subyektlərini auditə cəlb etmək məqsədilə,auditin mövcud problemləri və inkişaf istiqamətləri mövzularında mətbuatda mütəmadi olaraq materiallar dərc etdirilməsi, habelə Palatanın rəsmi internet səhifəsindən istifadə etməklə maarifləndirmə, məlumatlandırma və interaktiv sorğuların aparılması işləri davam etdirilsin.
6. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**